# MULTİKULTURALİZMİN TƏMİN OLUNMASINDA DÖVLƏT ORQANLARININ ROLU VƏ YERİ

**T.Ş. Şahbazov**

Bakı Dövlət Universiteti

*Məqalədə göstərilir ki, multikulturalizmin təmin olunmasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin özünəməxsus rolu vardır. Belə ki, məhz Nazirlər Kabineti və onun əlaqədar strukturları multikulturalizmin təmin olunması ilə bağlı əlaqədar icra hakimiyyəti orqanları və ayrı- ayrı təşkilatların fəaliyyətini əlaqələndirir, zərurət yarandıqda onların fəaliyyət prinsiplərini və istiqamətlərini müəyyən edir, bununla da multikulturalizmin normal inkişafı təmin olur.*

***Açar sözlər:*** *Multikulturalizm, hüquq, sistem, inkişaf, mədəniyyət, humanitar.*

Multikulturalizm, hər şeydən əvvəl, dövlət-hüquq tənzimlənməsinə ehtiyacı olan fəaliyyət sahəsi, mühüm ictimai hadisədir. Bu bir həqiqətdir ki, multikulturalizmin həm dövlət səviyyəsində, həm də sosial səviyyədə fəaliyyətinin təmin olunmasında qeyri-hökumət təşkilatlarının, beynəlxalq humanitar təşkilatların, eləcə də dövlətdaxili ictimai birliklərin və ictimai-siyasi təşkilatların rolu böyükdür. Lakin, multikulturalizm elə incə hadisələrdən biridir ki, onun fəaliyyətinin (hər bir ölkə daxilində) tənzimlənməsi və təmin edilməsi bilavasitə dövlətdən, o cümlədən əlaqədar icra hakimiyyəti orqanlarından asılıdır.

Göstərmək zəruridir ki, bu sahənin fəaliyyətinin təmin edilməsində ölkə hökumətinin – Azərbaycan Respublikası Nazirlər Kabinetinin özünəməxsus rolu vardır. Belə ki, məhz Nazirlər Kabineti və onun əlaqədar strukturları multikulturalizmin təmin olunması ilə bağlı əlaqədar icra hakimiyyəti orqanları və ayrı-ayrı təşkilatların fəaliyyətini əlaqələndirir, zərurət yarandıqda onların fəaliyyət prinsiplərini və istiqamətlərini müəyyən edir, bununla da multikulturalizmin normal inkişafı təmin olur.

Biz yuxarıda “icra hakimiyyəti orqanları” ifadəsini xatırlatdıq. Qeyd etmək lazımdır ki, Azərbaycanda multikulturalizmin təmin olunması ilə bağlı fəaliyyətin önündə gedən əsas icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə”nin 4.1.4-cü bəndində beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq sahə ilə bağlı təcrübəsini öyrənmək Mədəniyyət Nazirliyinin hüquqlarından biri kimi öz əksini tapmışdır [1].

Mədəniyyət Nazirliyi öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktları, o cümlədən 57 maddədən ibarət olan “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanununu [2] rəhbər tutur (Bu Qanun qüvvəyə mindiyi gündən “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 6 fevral 1998-ci il tarixli Qanunu ləğv edilmişdir). “Mədəniyyət haqqında” 21 dekabr 2012-ci il tarixli Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət mədəniyyət siyasətinin məqsəd və prinsiplərini, mədəniyyət fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, mədəniyyət sahəsində hüquqi, təşkilati, iqtisadi və sosial təminatları müəyyən edir, mədəni sərvətlərin yaradılması, toplanması, tədqiqi, təbliği və qorunması sahəsində yaranan münasibətləri tənzimləyir. Diqqətəlayiq haldır ki, Azərbaycan Respublikasının bu Qanununda aşağıdakılar mədəniyyət sahəsində dövlətin vəzifələri kimi təsbit olunmuşdur:

- mədəniyyət sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, o cümlədən sahə üzrə normativ hüquqi aktların və standartların, dövlət proqramlarının, tədbirlər planlarının, strategiyaların və konsepsiyaların qəbul edilməsi;
- milli mədəniyyətin bərpa edilməsi, qorunması, inkişafı və təşviqinə yönəlmiş tədbirlərin görülməsi;
- insanların Azərbaycan və dünya mədəniyyət nümunələrinə və mədəni sərvətlərə sərbəst yiyələnmələri üçün sosial əhəmiyyətli tədbirlərin təşkili;

- istedadlı şəxslərin peşəkar inkişafına dəstəyin göstərilməsi;
- mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinə şərait yaradılması;
- beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyətinin təqdim edilməsi və təşviqini təmin edən tədbirlərin görülməsi;
- mədəniyyət fəaliyyətində beynəlxalq təşkilatların, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, o cümlədən qeyri-kommersiya qurumlarının iştirakının dəstəklənməsi;
- milli mədəniyyət obyektlərinin təsnifatının təsdiqi;
- mədəniyyət sahəsində dövlət reyestrinin aparılması;
- mədəniyyət sahəsinin inkişafında xidmətlərə və töhfələrə görə mədəniyyət işçilərinə və yaradıcı şəxslərə həvəsləndirmə tədbirlərinin təşkili;
- milli mədəniyyətin bütün sahələrində zəruri infrastrukturun, şəraitin, maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi;
- xarici dövlətlərin mədəniyyət tədbirlərinin keçirilməsinə müvafiq dəstəyin göstərilməsi;
- xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin yaradılması, inkişafı və fəaliyyətlərinin əlaqələndirilməsi;
- xarici dövlətlərdə Azərbaycan mədəniyyəti tədbirlərinin keçirilməsi;
- mədəniyyətin inkişafı istiqamətində digər tədbirlərin həyata keçirilməsi.

Haqqında söhbət gedən Qanunun mahiyyətindən və hüquqi təbiətindən aydın şəkildə göründüyü kimi, Azərbaycan multikultural dəyərləri qanunvericilik qaydasında yüksək tutan, onları layiqincə qiymətləndirən ölkələr içərisində öz liderliyini qoruyub saxlayır. Əvvəllər də qeyd edildiyi kimi, ölkəmizdə multikulturalizm artıq dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir. Deməli, o eyni zamanda da Azərbaycanın mədəniyyət sahəsindəki dövlət siyasətinin tərkib hissəsidir. “Mədəniyyət haqqında” Qanunun 1.0.3-cü maddəsinə görə, mədəniyyət sahəsində dövlət siyasəti dedikdə, mədəni irsin və mədəni sərvətlərin yaradılması, müəyyən edilməsi, qorunması, inkişafı və təbliği sahəsində həyata keçirilən tədbirlərdə dövlətin rəhbər tutduğu məqsədlər, prinsiplər, normalar, konsepsiya, strategiya və dövlət proqramlarının məcmusu başa düşülür.

Qanunvericiliyə müvafiq olaraq mədəniyyət sahəsində dövlət siyasəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- tarazlılıq – mədəniyyət sənayesi ilə mədəniyyət məhsullarının və xidmətlərinin bazarları arasında balansın yaradılması, mədəniyyət cəmiyyətlərinin fəaliyyətinin inkişafının təmin edilməsi;
- bərabərlik – hər kəsin öz mədəniyyət və yaradıcılıq hüquqlarının və imkanlarının bərabər şərtlər əsasında həyata keçirilməsinin təmin olunması;
- demokratiklik – əhalinin azad düşüncə ruhunda tərbiyələndirilməsi, mədəniyyət sahəsinin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində hüquq və azadlıqların genişləndirilməsi, estetik düşüncə azadlığının təmin edilməsi, yeni mədəniyyət təşkilatlarının yaradılmasının stimullaşdırılması;
- humanistlik – dünyəvi dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin prioritet kimi qəbul olunması;
- inteqrasiya – dünya mədəniyyətindən təcrid olunmamaqla, dünya mədəniyyətinin universal dəyərlərini qəbul edərək, milli mədəniyyətin dünyada tanıdılması, zənginləşdirilməsi və inkişafının təmin edilməsi;
- keyfiyyətlilik – mədəniyyət sahəsində məhsulların və xidmətlərin ən qabaqcıl standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğunun təmin olunması;
- dünyəvilik – dünyəvi dəyərlərin yaradılması, qorunması və inkişafının təmin olunması;
- səmərəlilik – mədəniyyət sahəsində yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkil edilməsi;
- varislik – mədəni sərvətlərin, bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsi;
- istedad amili – fitri istedada malik şəxslərin yaradıcılıq nailiyyətlərinin artmasına xüsusi qayğının göstərilməsi.

Əsas prinsiplər öz məzmunu etibarilə bəşəri dəyərlərə söykənir. Azərbaycan və onun xalqı mədəniyyət sahəsində də hər hansı ayrı-seçkiliyə yol vermir, Azərbaycanın mədəniyyət sərvətlərinin multikultural dəyərlərin xidmətində olduğunu, dünyanın bütün xalqlarının bu sərvətlərdən sərbəst istifadə hüququnun olduğunu, habelə sərvətlərin inkişafa azad surətdə yaradıcılıqla xidmət göstərə bilmək imkanlarının olduğunu dünya qarşısında bir daha nümayiş etdirir.

Bütün bunların nəticəsidir ki, Azərbaycanda qonaq olan müxtəlif xalqların və millətlərin nümayəndələri ölkəmizi dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri hesab edir, həqiqətən də multikulturalizmin mərkəzi olduğunu təsdiqləyirlər. Bunu ölkəmizə gəlməkdə hər il sayı artan turistlərin dilindən həmişə eşitmişik. Onlar xalqımızın qonaqpərvərliyini, süfrəmizin açıqlığını və milli-mənəvi dəyərlərə (bu dəyərlərdən biri də multikulturalizmdir) daim hörmətlə yanaşdığımızı qürur hissi ilə qeyd etmiş, bundan xüsusi məmnun qaldıqlarını dəfələrlə vurğulamışlar. Haşiyədən çıxmaq kimi görünməsin, xarici turistlər bunu hər xalqın barəsində demirlər, çünki onlar ancaq gördüklərini dilə gətirirlər ki, bu da Azərbaycanın "aşıq gördüyünü çağırar" atalar sözü ilə tam uyğunluq təşkil edir.

Nəzərə almaq lazımdır ki, ölkənin Mədəniyyət Nazirliyi ilə birlikdə yerli özünüidarə orqanları da "Mədəniyyət haqqında" Qanundan irəli gələn bütün hüquqların və azadlıqların sərbəst həyata keçirilməsinə şərait yaratmalıdırlar. Əlbəttə, belə şərait Azərbaycan Respublikasının vətəndaşları ilə əcnəbi vətəndaşlar arasında heç bir fərq qoyulmadan yaradılmalı, mədəniyyət sərvətləri irqindən, dilindən, dinindən və cinsindən asılı olmayaraq hamı üçün eyni dərəcədə əlçatan olmalıdır.

Həmçinin bildirməyi zəruri hesab edirik ki, Azərbaycan Respublikası Milli Məclisinin 22 aprel 1997-ci il tarixli Qərarı ilə Azərbaycan Respublikası 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyasına [3], Milli Məclisin 28 oktyabr 1999-cu il tarixli Qərarı ilə isə "Birgə kino istehsalatı haqqında" 1992-ci il 2 oktyabr tarixli Avropa Konvensiyasına (Strasburq Konvensiyası) qoşulmuşdur [4].

Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" təsdiq edilmişdir. Həmin Konsepsiyanın 2.2-ci bəndində multikulturalizmin qorunub saxlanılması məqsədi ilə mədəniyyət sahəsində davamlı liberallaşmanın aparılması mədəniyyətin idarə olunması sahəsində aparılacaq islahatlar çərçivəsində əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir [5].

Azərbaycanda multikultural ənənələrin qorunub saxlanılması, inkişaf etdirilməsi və geniş şəkildə təbliğ olunması məqsədi ilə 8 oktyabr 2018-ci il tarixdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzinin təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və AMEA Fəlsəfə İnstitutunun iştirakı ilə Gəncə Dövlət Universitetinin "Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı kimi" adlı dəyirmi masa keçirilmişdir [6].

Qeyd etmək istərdik ki, Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərkibindədir. "Kitabxana işi haqqında" 29 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində dövlət kitabxana fondlarının xarici ədəbiyyatla ardıcıl təchizatı sisteminin yaradılması kitabxana işi sahəsində dövlətin vəzifələrindən biri kimi müəyyən olunmuşdur [7].

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 10 aprel 1998-ci il tarixli Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisindəki abidələrin, o cümlədən başqa xalqların nümayəndələrinin abidələrinin toxunul-mazlığına təminat verilir [8].

Habelə Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyən "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" 16 may 2003-cü il tarixli Azərbaycan Respublikasının Qanununu da qeyd etmək istərdik. Bu Qanunun 13-cü maddəsində göstərilir ki, xarici dövlətlərin folklor nümunələrinin Azərbaycan Respublikasında, Azərbaycan folklor nümunələrinin xaricdə hüquqi qorunması Azərbaycan Res-

publikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir [9]. Sevindirici haldır ki, Azərbaycan Akademik səviyyədə əlahiddə Folklor İnstitutuna malik olan yeganə dünya dövlətidir.

Azərbaycan Respublikasında dini konfessiyaların çoxluğu (məlum olduğu kimi, ölkəmizdə hər üç dünya dininin nümayəndələri yaşayır və fəaliyyət göstərir) multikulturalizmin sərbəst fəaliyyətinə, onların bütün hüquq və azadlıqlarının eyni səviyyədə təmin olunmasına dəlalət edən faktdır. Ümumiyyətlə, Azərbaycanda heç vaxt dini zəmində ədavət və münaqişələrə yol verilməmiş, dinlər arasında fərq qoyulmamışdır. Hətta müxtəlif dini konfessiyaların ayrı-ayrı məzhəbləri arasında münaqişəli anlar yaşanmamışdır. Sözsüz ki, ölkəmizdə belə sabit mənzərənin mövcud olması və hökm sürməsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müəyyən payı vardır. Müxtəlif dini etiqadların dini qurumları arasında qarşılıqlı anlaşmanın və bir-birinə dözüm və hörmətli münasibətin möhkəmlənməsinə kömək edilməsi, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması qeyd olunan Dövlət Komitəsinin vəzifələrindən biri kimi müəyyən olunmuşdur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi respublikada müxtəlif dinlər arasında, dövlətlə dindar vətəndaşların münasibətlərində, müxtəlif dini konfessiyalar arasında qarşılıqlı əlaqə və münasibətlərin yaranması və möhkəmləndirilməsində, habelə ölkənin müxtəlif bölgələrində qeydiyyatdan keçməmiş dini qrup və təriqətlərin fəaliyyətinin qarşısının alınmasında, bir çox hallarda belə qondarma dini təşkilatların aşkar və ifşa edilməsində mühüm dövlət vəzifələrini yerinə yetirir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi rəsmi dövlət nümayəndələri ilə din xadimləri, əhalinin dindar olan və dindar olmayan hissələri arasında isti ünsiyyətin yaranmasında, dini zəmində münaqişələrə yol verilməməsində, eləcə də islam dininin əxlaqi prinsiplərinə tamamilə yad olan dini ədəbiyyatların ticarət dövriyyəsinə çıxarılmamasında, əksinə, islami prinsip və əxlaqi fəzilətləri özündə ehtiva edən dini kitabların əhali içərisində yayılmasında böyük marağı olan dövlət idarəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mərkəzi icra hakimiyyəti orqanı olduğu üçün o, ayrı-ayrı dini konfessiyaların bir-birinə rəsmi olaraq yaxınlaşmasında iştirak etmir. Bu Komitə müxtəlif dinlərin nümayəndələri ilə qarşılıqlı münasibətlərində əlaqələrin daha da möhkəmlənməsi mövqeyindən çıxış edir, dövlətin dini qurumlar üçün bərabər şəraitin yaradılmasını təmin etməklə məqsədli mövqeyinin mövcudluğunu göstərməklə yanaşı, dindarlarla müxtəlif əhali qrupları arasında sağlam əlaqələrin yaranmasına üstünlük verir. Bu cəhətdən qeyd olunan Komitə ölkədə dini qurumlarla müxtəlif əhali qrupları arasında bir münsif rolunu oynayır, ölkənin Konstitusiyasına və dövlət qanunlarına əməl olunmasını təbliğ edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz fəaliyyətində ölkənin Əsas Qanununu və digər qanunları rəhbər tutur. Dini qurumlar arasında dostluq və qardaşlıq münasibətlərin yaranmasına nail olmaq bu orqanın əsas şüarıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu cür müsbət məzmunlu fəaliyyəti ilə eyni zamanda multikultural dəyərlərin qorunması və inkişafına kömək etmiş, təkan vermiş olur. Bu Komitə də multikulturalizmin, mədəniyyətlər arasında yaxınlaşmanın əhəmiyyətini lazımınca qiymətləndirərək, milli mədəniyyət abidələrinin qorunmasında, milli-mənəvi dəyərlərin yüksək səviyyədə saxlanmasında yaxından iştirak edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini-əxlaqi prinsiplərin milli mənsubiyyətindən, irqindən, dilindən, dinindən və cinsiyyətindən asılı olmayaraq bütün insanlar üçün bərabərliyini alqışlayan dövlət idarəsidir. Onun fəaliyyətində nəzərə çarpan cəhətlərdən biri heç bir mənəvi-əxlaqi çərçivəyə sığmayan ayrı-ayrı qeydiyyatsız dini qurum və təşkilatların vaxtında aşkar olunmasını, onların fəaliyyətinə tez bir zamanda son verilməsini və təqsirkarların öz layiqli cəzasına çatmasını təmin etməkdir. Komitə hər hansı bayağı şüarlarla çıxış edən dini konfessiyalara qarşı həmişə barışmaz mövqe tutur, dini məsələlərdə dövlətin mənafelərini ön plana çəkir, dövlət orqanları ilə dini qurumlar arasında əsası olmayan mübahisələrin meydana çıxmasına yol vermir.

Multikulturalizm Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində məhz buna görə mərkəzi yerlərdən birini tutur. Komitə bu məqsədlə müxtəlif dini konfessiyaların nümayəndələri, ayrı-ayrı nüfuzlu din xadimləri ilə mütəmadi görüşlər keçirir, qarşılıqlı fikir mübadiləsi aparır. Komitə bu müstəvidə fəaliyyət istiqamətlərini genişləndirmək üçün beynəlxalq dini idarə və

təşkilatların nümayəndələrini ölkəyə dəvət edərək qarşılıqlı əlaqələri və bu sahədə beynəlxalq münasibətləri daha da yaxşılaşdırır. Müntəzəm xarakterli belə fəaliyyət istiqaməti həmişə öz müsbət nəticələrini vermişdir. Əgər bu, multikulturalizmin təmin olunmasına müncər edilərsə, nə qədər böyük əhəmiyyətə malik olduğunu asanlıqla görmək olar. Tarixi təcrübə birmənalı şəkildə sınaqdan çıxarmışdır ki, müxtəlif xalqların və millətlərin, habelə milli azlıqların arasında yaxın münasibətlər yalnız qarşılıqlı ünsiyyət və görüşlər vasitəsilə mümkündür. Bunu bu günkü multikulturalizmin sosial-siyasi və hüquqi təbiəti də zəruri və labüd edir. Bu cəhətdən də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin indiki fəaliyyəti təqdirəlayiqdir.

Azərbaycan bu gün dünya birliyi üçün məşhur turizm ölkələrindən biridir. Bu səviyyəyə ildırım sürəti ilə ucalan ölkəmiz və xalqımız üçün bunu möcüzə adlandırmaq, fikrimizcə, şişirtmə olmaz. İlk növbədə göstərmək lazımdır ki, Azərbaycan Respublikasında turizmin Konstitusiya əsasları Əsas Qanunun 37-ci maddəsinin birinci hissəsində öz əksini tapmışdır. Həmin normaya görə, “hər kəsin istirahət hüququ vardır” [10]. Deməli, dövlət müvafiq orqanları vasitəsilə vətəndaşların istirahət hüququnu təmin etməlidir.

Turizm dünya iqtisadiyyatının dinamik inkişaf etdiyi sahələrindən biridir [11, s.3]. 1979-cu ildə Ümumdünya Turizm Təşkilatının (Birləşmiş Millətlər Təşkilatının nəzdində turizm məsələləri üzrə ixtisaslaşmış bu beynəlxalq təşkilatın nizamnaməsi 27 sentyabr 1970-ci ildə Mexikoda qəbul edilmişdir) Baş Assambleyası tərəfindən 27 sentyabr Dünya Turizm Günü (World Tourism Day) kimi təsis edilmişdir [12]. Azərbaycan Respublikası 2001-ci ilin sentyabr ayında Ümumdünya Turizm Təşkilatına üzv qəbul olunmuşdur. Prezident Cənab İlham Əliyev 1 sentyabr 2016-cı il tarixdə Azərbaycanda “Turizm işçiləri günü” peşə bayramının təsis edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir ki, hər il sentyabr ayının 27-si Azərbaycan Respublikasında “Turizm işçiləri günü” peşə bayramı kimi qeyd edilsin [13].

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin şəxsi təşəbbüsü ilə qeyd edilən tarix Azərbaycan turizm mütəxəssislərinin də peşə bayramı kimi tarixə vəsiqə aldı. 2016-cı il 27 sentyabr, 2017-ci il 27 sentyabr və 2018-ci il 27 sentyabr bütün dünyada, o cümlədən Azərbaycanda turizm günü kimi qeyd edildi. İndi Azərbaycan dünyada turizm ölkələri içərisində öz layiqli yerini tutmaq prosesini yaşayır. Bu böyük nailiyyətdir. Dövlətin yeritdiyi düzgün sosial-iqtisadi siyasət öz bəhrəsini verdi.

Keçilmiş bu qısa tarixi yol heç də asan olmamışdır. 4 iyun 1999-cu il tarixdə Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edən və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyən, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirən, 17 maddədən ibarət “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun [14] qəbul edilməsi bu uğurun başlanğıcı idi.

Bəs turizm (“Turizm” sözü fransız mənşəli “tourisme” sözündən götürülmüşdür, hərfi mənası “gəzinti”, “səyahət” deməkdir) nədir? Bu sualın cavabı yuxarıda adı çəkilən Qanunda birbaşa verilir. Belə ki, Qanunun 1-ci maddəsinə görə, turizm – bu, Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (səyahətləridir).

Anlayışın tərifindən bəzi multikulturalist elementlərin mövcudluğunu görməmək mümkün deyil. Məhz turizm fərdləri, insanları, xalqları və millətləri bir-birinə yaxınlaşdırır. Demək olar ki, hər bir turist səyahət etdiyi ölkənin mədəniyyəti ilə yaxından tanış olmaq imkanı qazanır. Əslində isə, buna turistlərin bilavasitə özləri böyük həvəs göstərir, ölkəni tərk edərkən milli mədəniyyətin kustar üsulla hazırlanmış nümunələrini xatirə olaraq özləri ilə götürürlər.

Turizm elə bir mədəni səyahətdir ki, bəzi əcnəbi şəxslər getdikləri ölkənin mədəniyyəti, milli-mənəvi dəyərləri, adət-ənənələri, milli xüsusiyyətləri ilə daha yaxından və ətraflı tanış olmaq üçün həmin ölkənin dövlət dilini minimum həddə də olsa öyrənmək istəyində olur və buna

turistlərin az bir bir qismi nail olsa da, yenə də qonaq olduqları xalqın dilinə və mədəniyyətinə hədsiz sevgisindən irəli gəlir.

Hər hansı ölkədə turizmin lazımi səviyyədə gerçəkləşdirilməsi bəzi amillərdən asılıdır. Birincisi, turizm səfəri edilən ölkə zəruri təbii ehtiyatlara malik olmalıdır. Turizm ehtiyatları dedikdə, səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafında kömək edə bilən digər obyektlərin məcmusu başa düşülür.

İkincisi, turistləri qəbul edən ölkənin turizm infrastrukturu yüksək səviyyədə təşkil edilməlidir. Turizm infrastrukturu – bu, turizm məhsulu istehsalı təşkilinin kompleksli sistemi və yaxud mehmanxana və digər yerləşdirmə-yerdəyişmə, nəqliyyat vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri və vasitələrinin, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman və digər təyinatlı obyektlərin, turoperator və turagent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisə və təşkilatların, həmçinin ekskursiya və bələdçi (bələdçi-tərcüməçi) xidmətləri göstərən təşkilatların məcmusudur.

Məhz yuxarıda göstərilən bu iki amil turizm fəaliyyətinin dövlət-hüquq tənzimlənməsini zəruri edir. Turizm fəaliyyətinin dövlət-hüquq tənzimlənməsi "Turizm haqqında" Qanunun 3-cü maddəsində nəzərdə tutulmuşdur. Belə ki, dövlət turizm sahəsində aşağıdakıları həyata keçirir:

- turizm fəaliyyətinə kömək edir və onun inkişafı üçün əlverişli şərait yaradır;
- turizm fəaliyyətinin üstün istiqamətlərini müəyyən edir və onun həyata keçirilməsinə kömək edir;
- Azərbaycan Respublikası haqqında turizm üçün əhəmiyyətli bir ölkə kimi təsəvvür formalaşdırır.

Azərbaycanda turizm fəaliyyətinin tənzimlənməsinin əsas məqsədləri aşağıdakılardır:

- ✓ turistlərin səyahətləri zamanı istirahət, yerdəyişmə azadlığı və digər hüquqlarını təmin etmək;
- ✓ ətraf mühiti (təbiəti) qorumaq;
- ✓ turistlərin səyahətləri zamanı onların tələbatlarını təmin edən turizmin infrastrukturunu inkişaf etdirmək, yeni iş yerləri yaratmaq, dövlətin və onun vətəndaşlarının gəlirlərini artırmaq;
- ✓ beynəlxalq əlaqələri inkişaf etdirmək, turizm baxış obyektlərini qoruyub saxlamaq, təbii, tarixi və mədəni irsdən səmərəli surətdə istifadə etmək.

Turizm fəaliyyətinin əsas məqsədlərinin məzmununda da multikultural dəyərlərə üstünlük verilməsi ilə əlaqədar elementləri müşahidə etmək mümkündür. Belə elementlərə təbii, tarixi və mədəniyyət obyektlərinin qorunmasının (çünki məhz bu sərvətlər turistlərin diqqətini daha çox özünə cəlb edir) və beynəlxalq əlaqələrin inkişaf etdirilməsinin təmin olunmasını nümunə kimi göstərmək olar.

Turizm sahəsində dövlət siyasətinin əsaslarını və bu sahənin əsas istiqamətlərini müəyyən etmək, turizmin inkişafına dair dövlət proqramı işləyib hazırlamaq, turizmin normativ bazasını işləyib hazırlamaq və gücləndirmək, turizmdə sahələrarası və regionlararası fəaliyyəti əlaqələndirmək və s. turizm sahəsində dövlətin vəzifələri kimi təsbit edilmişdir ("Turizm haqqında" Qanunun 4-cü maddəsi).

Turizm üzrə 14 aprel 1989-cu il tarixli Haaqa Deklorasiyasında göstərilmişdir ki, turizm turist səyahətlərini müxtəlif və cəlbedici assortimentinin potensial istehlakçılara təklif etməklə asudə vaxtın rasional istifadəsi ilə şərtlənir. Turizm sferasında müəyyən edilmiş sərhədlər mövcuddur, burada proseslər mərkəzləşdirmə olmadan davam edə bilməz, necə ki, dövlətin turizm siyasətinin, onun milli və regional səviyyədə əlaqələndirilməsini təmin edən milli mexanizm olmadan həyata keçirilməsi mümkün deyildir. Məhz buna görə də, dövlət turizmin kortəbii inkişafının qarşısını ala biləcək və onu sivil məcraya istiqamətləndirə biləcək bir sıra tədbirlər nəzərdə tutulmalıdır. Dövlət həmçinin cəmiyyətin digər fəaliyyət növlərinin əsas tələbatlarının təmin edilməsi məqsədi ilə turizmin harmonik inkişafını həyata keçirməlidir [15].

Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2005-ci il tarixli Sərəncamına əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 fevral 2006-cı il tarixli Qərarı ilə ölkədə Turizm

İnstitutunun təsis edilməsini yuxarıda qeyd olunan uğurun yeni inkişaf mərhələsinin davamı kimi qiymətləndirmək olar.

Azərbaycan Respublikasında turizm, menecment və digər xidmət sahələrində müşahidə olunan sürətli inkişafı, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli Sərəncamı ilə Turizm İnstitutunun bazasında ali təhsilin bütün pillələrində turizm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Turizm və Menecment Universiteti yaradılmışdır [16].

01 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncamda əsas məqsədi Azərbaycan Respublikasında turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarət olan Azərbaycan Respublikası Turizm Şurasının yaradılması nəzərdə tutulmuşdur [17]. Göstərilənləri bu günədək təkrar olunan uğurların davamı kimi qiymətləndirmək olar.

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi kimi mötəbər bir qurum yaradıldı [18]. Azərbaycan Respublikası Prezidentinin 21 sentyabr 2018-ci il tarixli Fərmaı ilə "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə" təsdiq edilmişdir. Həmin Əsasnamənin 1.1 və 1.3 bəndlərində qeyd olunur ki, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi turizm sahəsində, habelə tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, beynəlxalq və yerli qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

21 sentyabr 2018-ci tarixli Əsasnamədə turizm sahəsində dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək; turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək Agentliyin fəaliyyət istiqamətlərindən biri kimi, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə turizm mərkəzinə çevrilməsi məqsədi ilə müvafiq təşviqat işini aparmaq; turizm sahəsində mövcud vəziyyətin, gələcək inkişaf istiqamətlərinin, həmçinin perspektivlərinin müəyyən edilməsi üçün elmi tədqiqat və araşdırmalar aparmaq Agentliyin vəzifələrindən biri kimi, müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək isə Agentliyin hüquqlarından biri kimi müəyyən edilmişdir [19].

Bütün bunlar ölkəmizə turist axımının artmasına səbəb olmuşdur. Digər tərəfdən Azərbaycanın Şərqlə Qərbin ayrıcında yerləşməsi, mülayim təbii iqlim, dünyadakı 11 iqlim qurşağının 9-nun ölkəmizdə olması, zəngin təbii və mədəniyyət sərvətlərimiz və Azərbaycanın öz qapılarını xarici ölkə vətəndaşlarının üzünə taybatay açması bugünkü uğuru şərtləşdirən mühüm və təkzibedilməz amillər hesab oluna bilər.

Beləliklə, aparılan təhlillər əsasında elə nəticəyə gəlmək olar ki, multikulturalizmin təmin olunmasında rolu və yeri olan dövlət orqanlarının hər biri bu prosesdə özünəməxsus prinsiplərə, məqsəd və vəzifələrə uyğun fəaliyyət göstərir, eyni zamanda qeyd olunan sahədə dövlət tənzimlənməsinə xidmət edirlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 06 iyun 2018-ci il tarixli Fərmanı. http://mct.gov.az/medias/media/other/341/med-naz-feal-fer.pdf

2. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanunu. Bakı: Qanun, 2018, 20 s.
3. Avropa Mədəniyyət Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının 22 aprel 1997-ci il tarixli Qanunu. http://e-qanun.az/framework/3842
4. “Birgə kino istehsalatı haqqında” 2 oktyabr 1992-ci il tarixli Avropa Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli Qanunu. http://e-qanun.az/framework/2939
5. “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2014-cü il tarixli Sərəncamı. Bakı: “Nağıl Evi-N” mətbəəsi, 2014, 26 s.
6. Gəncədə “Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı kimi” adlı dəyirmi masa təşkil olunub. http://mct.gov.az/az/umumi-xeberler/gencede-multikulturalizm-siyaseti-cemiyyetde-sabitliyin-teminati-kimi-adli-deyirmi-masa-teskil-olunub
7. “Kitabxana işi haqqında” 29 dekabr 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2017, 14 s.
8. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” 10 aprel 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2017, 12 s.
9. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” 16 may 2003-cü il tarixli Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2018, 6 s.
10. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: “Hüquq Yayın Evi”, nəşriyyatı, 2017, 92 s.
11. Ган Н.А. Правовое регулирование деятельности по оказанию туристских услуг в Российской Федерации: Дисс. ... канд. экон. наук. М., 2008, 25 с.
12. World Tourism Day. https://planeta.com/world-tourism-day
13. Azərbaycanda “Turizm işçiləri günü” peşə bayramı təsis edildi. https://az.trend.az/azerbaijan/politics/2655491.html
14. “Turizm haqqında” 4 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu. http://www.e-qanun.az/framework/4759
15. Гаагская декларация по туризму (Принята 14 апреля 1989 года). http://online.zakon.kz/Document/?doc_id=30840439#pos=0
16. “Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli Sərəncamı. http://atv.az/news/social/9241-turizm-ve-menecment-uzre-universitet-yaradilir-serencam
17. “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 01 sentyabr 2016-cı il tarixli Sərəncamı. https://president.az/articles/20925
18. “Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli Sərəncamı. https://president.az/articles/28138/print
19. Azərbaycan Respublikası Prezidentinin 21 sentyabr 2018-ci tarixli Fərmaı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə”. http://marja.az/news/30926?title=prezident-dovlet-turizm-agentliyi-barede-ferman-verdi

## РОЛЬ И МЕСТО ГОСУДАРСТВЕННЫХ ОРГАНОВ В ОБЕСПЕЧЕНИИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

***Т.Ш. Шахбазов***

*В статье указывается, что в обеспечении мультикультурализма Кабинету Министров Азербайджанской Республики принадлежит своеобразная роль. Так, именно Кабинет Министров и его подведомственные структуры координируют деятельность соответствующих органов исполнительной власти и отдельных организаций, связанных с обеспечением мультикультурализма, при возникновении необходимости определяют*

*принципы и направления их деятельности, обеспечивая тем самым нормальное развитие мультикультурализма.*

***Ключевые слова:*** *Мультикультурализм, право, система, развитие.*

***THE ROLE AND PLACE OF STATE BODIES IN ENSURING MULTICULTURALISM***

***T.Sh. Shahbazov***

*The article states that the Cabinet of Ministers of the Republic of Azerbaijan has a peculiar role in ensuring multiculturalism. So, it is the Cabinet of Ministers and its subordinate structures that coordinate the activities of relevant executive authorities and individual organizations involved in ensuring multiculturalism, when the need arises, determine the principles and directions of their activities, thus ensuring the normal development of multiculturalism.*

***Key words:*** *Multiculturalism, law, system, development.*

***Rəyçi: h.f.d. S.S. Məmmədova***